

■ Xəyalə Rəis
teatrşünas

# Səxavət Məmmədov:
# “Gəlib teatrımızdakı şəraitlə tanış olun və reallığı yazın”

**Noyabrın 11-də Mingəçevir şəhərinin yaranmasının 67-ci ili tamam oldu. Yubileyə yeni əsərlə gələn Mingəçevir Dövlət Dram Teatrında “Təbəssüm” tamaşasına daxili baxış keçirildi. Müəllifi Əşrəf Əsgərovun olduğu əsərin, quruluşçu rejissoru, xalq artisti Zülfüqar Abbasov idi.**

Bu münasibətlə Teatrın direktoru Səxavət Məmmədovla söhbət etdik. Söhbətdən bir çox mətləblər aydın oldu...

**- Səxavət müəllim, Mingəçevir şəhərinin yaranmasının 67-ci ildönümünə həsr olunmuş tamaşa ilə mingəçevirliləri təbrik etdiniz. Tədbir nəzərdə tutduğunuz kimi keçdimi?**

- Bəli, gözlənildiyi kimi tamaşaya Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov başda olmaqla şəhər ictimaiyyəti də gəlmişdi. Tamaşaçıların böyük marağına səbəb olan “Təbəssüm” tamaşası Mingəçevirin 1980-90-cı illərini əks etdirir. Bu tamaşanı yubileylə əlaqədar olaraq mingəçevirlilərə hədiyyə etdik. Tamaşadan sonra şəhər İH başçısı teatrın yaradıcı heyəti ilə görüşdü. Aktyor truppasını təbrik edən icra başçısı öz tövsiyələrini bildirdi və bundan sonra bütün tamaşaların premyerasına gələcəyini dedi.



**- Hazırda Mingəçevir teatrında hansı yaradıcılıq işləri gedir?**

- İlin sonuna yaxınlaşdığımız üçün daha da məhsuldar çalışırıq. Belə ki, teatrımızda eyni vaxtda 4 tamaşanın məşq prosesi gedir. Öncə onu qeyd edim ki, teatrımıza 2000-2014-cü illərdə Türkiyədə yaşamış, fəaliyyət göstərmiş rejissor Xəzər Gəncəlini dəvət etmişik. O, türk yazarı Cahid Atayın “Pusquda” əsərini tamaşaya qoyur. Noyabrın 20-də həmin əsərə daxili baxış keçiriləcək. Bununla yanaşı, Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluşunda 3 tamaşa hazırlanır. Onlardan biri 2015-ci il repertuar planına daxil olan İlqar Fəhminin “Son reportaj” əsəridir. Bu əsər Azərbaycan teatrları içərisində ilk dəfə olaraq Mingəçevir teatrında səhnələşdirilir. Teatrın yaradıcı heyəti eyni zamanda repertuardan kənar Xanirə Röyanın “Xalidənin taleyi” adlı əsəri üzərində çalışır. Həmin tamaşalarla bərabər biz Mingəçevir məktəblilərinin qış tətilini nəzərə alaraq uşaqları da unutmamışıq. Onlar üçün də “Keçinin sərgüzəştləri” adlı tamaşanın məşqləri gedir.

**- Mingəçevir tamaşaçılarını teatral hesab etmək olarmı?**

- Əlbəttə. Mingəçevir yarandığı gündən ətraf rayonlara nisbətən şəhər tipində formalaşıb. Burada ziyalı kütlə həddindən artıq çoxdur. Ona görə də Mingəçevir digər bölgələrə nisbətən bir qədər fərqlidir. Bu baxımdan əminliklə deyə bilərəm ki, mingəçevirlilər teatral insanlardır. Tamaşaçılar təklifsiz, reklamsız kassamızdan bilet alaraq mütəmadi şəkildə tamaşalarımıza gəlirlər.

**- Hazırda teatrda şərait hansı vəziyyətdədir? Mingəçevirlilərin tamaşanı rahat izləmək üçün əlverişli şəraitləri varmı?**

- Teatrımızda heç bir problem yoxdur. Dövlət başçımız, cənab İlham Əliyevin “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “Azərbaycan teatrı 2009-2019-cu illərdə inkişaf konsepsiyası” proqramına əsasən Mingəçevir teatrı tam, standartlara uyğun şəkildə bərpa olunub. Bizim teatrımız müasir standartlara cavab verir. Belə ki, Mingəçevir teatrı istilik sistemləri, texniki avadanlıqlarla təchiz olunub. Hazırda teatrımız qış rejimindədir. Tam müasir formada təmir olunmuş yeni binada çalışırıq. Heç bir çətinliklə də üzləşmirik.

**- Bölgə teatrlarının əksəriyyətində gənc aktyor və aktrisa problemi yaşanır. Bəs sizdə necə, bu problemi hansı üsullarla həll edirsiniz?**

- Bu problem bütün bölgə teatrlarında olduğu kimi bizdə də var. Ancaq bacardığımız qədər çalışırıq ki, gənc nəslə özlərini realizə etmələri üçün imkan və şərait yaradaq. Bununla bağlı Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə teatrımızın daxilində “İnam” tədris studiyası fəaliyyət göstərir. Bu studiyada paytaxtda təhsil almayan gənclər iştirak etməklə aktyor kimi yetişə bilərlər. Hazırda studiyamız aktiv şəkildə fəaliyyət göstərir. Orada 8 gənc iştirak edir. İki illik kursdan sonra onların içərisindən ən istedadlılarını götürüb işlə təmin edirik. İki ilin tamamında həmin gənclərə sertifikatlar veririk. Bu yolla gənclərin teatra axınını bir növ sığortalayırıq və teatrın gənc aktyor, aktrisa problemlərini həll etməyə çalışırıq. Bir neçə aydır ki, studiya öz fəaliyyətini bərpa edib və aktiv şəkildə işləyir.

**- Yeni mövsümdə teatrınızın qastrol səfərləri gözlənilirmi?**

- Planlaşdırmışıq ki, yeni ildən sonra “Son reportaj” tamaşasını paytaxtda - Gənc Tamaşaçılar Teatrında nümayiş etdirək. Bundan başqa Cahid Atayın “Pusqu” əsərini rejissorumuz Xəzər Gəncəlinin sayəsində yazda Ankarada keçiriləcək teatr festivalına aparmaq istəyirik. Tamaşada 3 obraz var. Ancaq buna baxmayaraq çox maraqlı tamaşadır. Hesab edirəm ki, bu tamaşa da uğurlu tamaşalarımız sırasında öz layiqli yerini tutacaq. Bu tamaşa vasitəsi ilə bir növ qardaş ölkə-Türkiyəyə çıxışımız bir qədər rahatlaşar.

**- Bir neçə ay bundan öncə eşitdik ki, ifaçı Roza Zərgərli Mingəçevir teatrında tamaşa hazırlayacaq. Eşitdiklərimiz doğrudurmu?**

- Roza Zərgərli Mədəniyyət və İncəsənət Universitetinin məzunu olub. Onun magistr təhsili də var. İfaçı olmasına baxmayaraq Roza xanım İncəsənət Universitetinin “dram rejissorluğu” fakültəsini bitirib. Biz onunla quruluşçu rejissor kimi müqavilə bağladıq. O, bir müddət bizimlə əməkdaşlıq etdi. Teatr günündə - Martın 10-da teatr və şəhər tədbirlərimiz bilavasitə Roza Zərgərlinin təşkilatçılığı ilə hazırlandı. Biz onun işindən razı qaldıq. Bu yaxınlarda teatrımızda onun rejissorluğu ilə tamaşa hazırlanacaq. Hazırda ifaçı əsərlər üzərində seçim edir. O, yaxın zaman çərçivəsində maraqlı əsərlə Mingəçevir teatrında tamaşa hazırlamağı qarşısına məqsəd qoyub. Əgər Roza Zərgərli bizə maraqlı bir əsərlə müraciət edərsə, biz onunla yenidən müqavilə bağlayacağıq.

**- Əslində bu gözəl ideyadır, həm də bir növ teatrın reklamına xidmət edir. Əfsuslar olsun ki, bu günün tamaşaçıları daha çox şou-bizneslə maraqlanır. Belə olan halda şou-biznesin də səmtini teatra yönəltmək tamaşaçılarda bir qədər maraq da oyadar.**

- Əlbəttə. Biz böyük şəhər tədbiri keçirdik və tədbirin təşkilatçılıq, rejissorluq işini Roza Zərgərliyə həvalə etdik. İnanın ki, həmin tədbir böyük maraqla qarşılandı. Tədbirə həddən ziyadə tamaşaçı gəldi. Biz heç bir tədbirimizdə, yaxud da tamaşalarımızda o qədər izləyici görməmişdik. Tanınmış sima olmaqla deyil, təhsili, savadı olmalıdır ki, gəlib teatrda tamaşa hazırlaya bilsin. Müğənnilərin bölgədə tamaşa hazırlaması və yaxud da hər hansı bir tədbiri təşkil etməsinin nəyi pisdir ki? Bu iş bir növ Roza Zərgərlinin ixtisasıdır. Burada qəribə heç nə yoxdur.

**- Roza Zərgərlinin teatrda tamaşa hazırlaması bəzi rejissorların qınağına səbəb olacaq. Bu qınaqlara hazırsınızmı?**

- Biz rejissorlar arasında heç bir ayrı seçkilik qoymuruq. Mingəçevir teatrında artıq iki ilə yaxındır ki, rejissor ştatı boşdur. Bu iki il ərzində teatra 15-ə yaxın rejissor dəvət etmişik. Bizim üçün rejissorun kimliyinin fərqi yoxdur. Əgər istənilən rejissor teatrımıza seçilmiş əsərlərlə müraciət edərsə, həmin əsər Mingəçevir tamaşaçısının zövqünə uyğundursa, bu tamaşa ilə teatrımızı digər ölkələrdə təmsil edə biləriksə nə üçün həmin təklifi qəbul etməyək? Buyursunlar, gəlsinlər. Biz onların tamaşa hazırlamaları üçün istənilən şəraiti yaradarıq. Bizim üçün əsas məsələ odur ki, ortalığa uğurlu bir tamaşa qoysunlar.

**- Rejissorsuz teatr başsız bədənə bənzəyir. Elə bir namizədiniz varmı ki, siz o rejissoru ehtiyatda saxlamısınız?**



- Mingəçevir teatrı bu iki il müddətini çıxmaq şərti ilə heç vaxt rejissorsuz qalmayıb. Mütəmadi olaraq teatrın rejissoru olub. Razılaşıram ki, hər bir teatrın öz baş rejissoru olmalıdır. Biz bu məsələni Mədəniyyət və Turizm Nazirliyində dəfələrlə müzakirə etmişik. Uzun müddət Türkiyədə işləmiş rejissor Xəzər Gəncəli “Pusku” tamaşasına mükəmməl quruluş versə, biz ona teatrımızda baş rejissor işləməyi təklif edəcəyik. Əgər o qəbul etsə, yəqin ki, onunla çalışacağıq.

**- Xaricdən gələn rejissorlar bölgə teatrında çalışmaq üçün yəqin ki, yüksək qonorar tələb edər. Belə olan halda onu necə təmin edəcəksiniz?**

- Dövlətin təsdiq etdiyi ştat cədvəli üzrə əmək haqqını ödəyəcəyik. Təbii ki, onun kənardan gəlməyi nəzərə alınaraq müqavilə bağlanacaq. Həm öz daxili imkanlarımız, həm də nazirliyin köməkliyi nəticəsində onu saxlaya bilərik. Qeyd edim ki, Xəzər Gəncəli Azərbaycanlıdır. Sadəcə olaraq 10 il müddətində o Türkiyədə fəaliyyət göstərib. Şair Novruz Gəncəlinin oğludur, yetərincə istedadlı bir rejissordur.

**- Son dönəmlər Mingəçevir Teatrı ilə bağlı mətbuatda qalmaqallı məqalələr dərc olunmuşdu. Hazırda teatr daxilində hansısa iğtişaşlar baş qaldırırmı?**

- Sizin vasitənizlə bildirmək istəyirəm ki, Mingəçevir teatrında bizə aid olmayan məsələlərlə bağlı mətbuatda dəfələrlə yazılar dərc edilib. Əslində bu bizi çox narahat edir. Buradan mətbuat nümayəndələrinə müraciət edirəm ki, gəlib teatrımızdakı şəraitlə tanış olsunlar və reallığı yazsınlar. Mən mətbuata belə şeyləri yaraşdırmıram.

**- Axı qalmaqal reytinq gətirir.**

- Olmayan şeyi yazmaqla oxucu sayını artırmaqdansa, real vəziyyəti yazsalar, oxunma sayı daha artıq olar. Yenə də deyirəm, gəlin, bizim Mingəçevir ailəsinin içinə girin, baxın, sonra yazın. Sizi inandırım ki, reallıq əks olunsa, onun oxunma sayı daha çox olacaq.